


# Qadınlarımız ən uca sevgi-sayğılara layiqdirlər

***8** Mart Beynəlxalq Qadınlar Günü artıq illərdən bəri eyni gündə dünyanın hər yerində, hər bir ailədə böyük sevgi və təntənə ilə qeyd edilən, bəlkə də, yeganə bayramdır. Bu, hər şeydən əvvəl, qadınların öz çevrəsində qədir-qiymətinin etiraf olunması, həm də onların kişilərlə bərabər hüquqlarının hər bir dövlətdə və bütövlükdə, beynəlxalq aləmdə təsbit olunması ilə bağlıdır.***



Ana, qadın şərəfinin tarixən çox uca tutulduğu ölkəmizdə qadınların adı ilə bağlı bu çağdaş bayram hər il həyatımızı cəmiyyətin zərif məxluqa olan ehtiramı və qədirbilənliyi ilə mənalandırır. 8 Martın yaratdığı sevinc və sayğı duyğuları min illərdən bəri milli bayram kimi qeyd edilən Novruzqabağı xoş əhvalı və təntənəni də ikiqat artırır. Bu bayram bizə beynəlxalq həyatdan gəlsə də, xalqımıza çoxdan doğma və əziz olub. Müstəqillik illərində isə ümummilli bayramlar sırasında 8 Martın yeri, dəyəri bir az da artıb.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi ənənənin davamı olaraq, hər il 8 Martda Prezident İlham Əliyev dövlətimizin və xalqımızın adından Azərbaycan qadınlarını səmimi təbrik edir, onlara ən xoş arzularını çatdırır. Bu ali münasibət qadınlar gününün daha bir ümumxalq bayramı kimi ölkəmizdə yüksək səviyyədə qeyd edilməsinə yüksək stimul yaradır. Belə bir diqqətin nəticəsidir ki, qadınlarımızın cəmiyyətdə mövqeyi və nüfuzu ildən-ilə yüksəlir.

Xalqın qadınlarla bağlı duyğu-düşüncələrini, kişilərin onlara məxsusi sevgisini dərindən və yüksək bədiyyatla ifadə edən şair və yazıçılarımız isə bu mövzuda bütöv bir kitabxana yaradıblar. Böyük söz ustası Səməd Vurğunun “Adın şərəflidir sənin ey qadın, Dahilər anası çağrılır adın” misraları milli qadınlığın uca tərifi kimi səslənir. Ən tərifli sözlərimizin, uca diləklərimizin ünvanı bundan sonra da analarımız, bacılarımız, qız balalarımız olacaq.

Təsadüfi deyil ki, ailələrdə, kollektivlərdə baharın ilk çiçəklərini, dünyanın ən ətirli və yaraşıqlı güllərini 8 Martda analarımıza, qız-gəlinlərimizə, ulu Dədə Qorquddan üzü bəri “başım baxtı, evim taxtı”– deyib öydüyümüz xanımlarımıza təqdim edirik. Həm evdə, həm də bayırda həyatın ikiqat yükü altında olan qadınlarımızın yükünü azaltmaq, şərəfini yüksəltmək üçün dövlətimiz mümkün olan hər şeyi edir, hər birimiz onların qayğısını azaltmaq, məmnunluğunu artırmaq üçün hər bir fədakarlığa hazırıq.

Hər 8 Mart bayramı qadınların cəmiyyətdə rolunun və onlara sevgi-sayğının yüksəldilməsi ilə bağlı ölkəmizdə də görülən işlərin hesabatına, həllini gözləyən məsələlərin isə önə çəkilməsi tələbinə çevrilir. Bu gün Azərbaycan qadını evdə və işdə, ölkədə və beynəlxalq aləmdə dərin zəkası, yüksək hissiyyatı, hərtərəfli bacarığı, çağdaş dünyanın çağırışlarına mükəmməl cavabları ilə mötəbər mövqeyə yüksəlmişdir. Həyatın elə bir sahəsi yoxdur ki, qadınlarımız orada yüksək səviyyəli iştirakları ilə təmsil olunmasınlar. Dövlətimizin ikinci ali şəxsi səviyyəsinə yüksəlmiş Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizdə və dünya miqyasında gerçəkləşdirdiyi humanist missiya, çoxşaxəli fəaliyyət Azərbaycan qadınının beynəlxalq aləmə təqdim etdiyi nadir örnək kimi qəbul olunur.

Hamımız üçün çox əziz olan bahar təravətli bu ümumdünya bayramı günündə Azərbaycan qadınlarına möhkəm cansağlığı, gözəllik, ailə səadəti, bütün arzu-istəklərinə qovuşmaq imkanı arzu edirəm. Qoy ana-bacılarımızın nəsibi xoşbəxtlik, firavanlıq, bir-birindən xoş sabahlar olsun!

Qəlbimizə sevgi, ehtiram, xoş diləklər gətirən bu gündə ümumi dərdimiz olan, ötən üç onillikdə ana-bacılarımıza hamıdan artıq bəla gətirmiş Qarabağ münaqişəsinin qanqadasız aradan qaldırılmasını arzu etməkdən qiymətli nə ola bilər? Odur ki, növbəti 8 Mart bayramına qədər yurdumuzda ədalətli, dayanıqlı Sülhün bərqərar olması xalqımızın ən böyük arzusudur.

***Cavanşir FEYZIYEV,***
***Milli Məclisin deputatı,***
***fəlsəfə doktoru***

Xalq qəzeti 2020.- 8 mart.- S.4.